# "MUSİQİ DÜNYASI" JURNALININ BİBLİOQRAFİYASI. 20 İLLİK YOLUN SƏHİFƏLƏRİ

*Cəmilə HƏSƏNOVA*

20 il bundan öncə, 1999-cu il, sentyabrın 18-də, ılkəmizdə hamılıqla "Üzeyir musiqi gününü" bayram ɪtdiyimiz ərəfədə musiqi dünyamıza yeni bir nəşr - Musiqi dünyası" adlı elmi-pedaqoji, tənqidi-publisistik ə mədəni-maarifçillik yönümlü musiqi jurnalı daxil ıldu. Tezliklə jurnalın çap versiyası ilə yanaşı, internet ersiyası da fəaliyyətə başladı ki, bu da onun oxucu uditoriyasının genişlənməsinə şərait yaratdı. Daha onralar "Musiqi Dünyası" radiojurnalı efirdə yayımlandı, ıttp://musigi-dunya.az" ünvanlı saytlar meydana əlməyə başladı, artıq dünya məkanında müxtəlif ıillətli musiqisevərlərin maraq dairəsinə cevrildi. Və ıübaliğəsiz demək olar ki, bu jurnal yarandığı gündən z musiqiçilər üçün doğrudan da bir musiqi dünyası oldu.




"Musiqi Dünyası" jurnalının naşiri və baş redaktoru Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, görkəmli musiqişünas-alim, sənətşünaslıq doktoru, professor Tariyel Məmmədovdur və bu jurnalı sözün əsl mənasında, Tariyel müəllimin "övladı" adlandırmaq olar.

Xatırlatmaq istərdim ki, Sovet dövründə Moskvada çap olunan "Sovetskaya muzıka" ən nüfuzlu jurnallardan biri olub, sovet musiqişünaslığı üçün, SSRİ-yə daxil olan bütün respublikaların musiqi ictimaiyyəti üçün, əsasən də bəstəkar və musiqişünaslar üçün bir tribuna rolunu oynayırdı. 1999-cu ildə - XXI əsrin astanasında nəşrə başlayan "Musiqi Dünyası" jurnalı müstəqil Azərbaycan Respublikasının elm, mədəniyyət və incəsənət xadimləri üçün belə bir tribunaya çevrildi. Onu da deyim ki, Azərbaycan Bəstəkarlar İttifaqının və Bakı Musiqi Akademiyasının təsisçiliyi ilə ərsəyə gəlmiş "Musiqi dünyası" həmin dövrdə Azərbaycan dilində ilk və yeganə musiqi jurnalı idi və respublikada ana dilində elmi ədəbiyyatın genişlənməsinə xidmət etmişdir. Tədricən bir çox ölkələrin alimlərinin diqqətini cəlb etmiş jurnal hazırda öncül mövqeyini saxlayaraq, sənətşünaslıq üzrə nüfuzlu bir nəşr kimi tanınmışdır.

"Musiqi Dünyası" jurnalının əsas məramı və məqsədini aşağıdakı kimi ifadə etmək olar: Azərbaycan musiqisinin III minilliyə çatdırılması, milli musiqi irsinin qorunması və təbliği, musiqişünaslığın aktual problemlərinin önə çəkilməsi, müasir musiqi təhsili ilə bağlı məsələlərə diqqət yetirilməsi, Azərbaycan musiqi irsinin dünya internet məkanına çıxarılması, beynəlxalq əlaqələrin yaradılması. 20 illik fəaliyyəti dövründə "Musiqi Dünyası" addım-addım bu məqsədlərini həyata keçirməyə nail olmuşdur.

"Musiqi dünyası" jurnalı eyni zamanda, elektron nəşrlər mərkəzi kimi fəaliyyət göstərir. "Musiqi Dünya-

sı"nın çap və elektron versiyası ilə yanaşı, azərbaycan, rus və ingilis dillərində çıxan "Harmony" elektron jurnalı da beynəlxalq miqyasda Azərbaycan musiqi elminin problemləri, tədqiqat sahələri və nailiyyətləri ilə oxucuları tanış edir.

"Musiqi dünyası"nın Azərbaycan, rus, ingilis dillərində hazırlanan veb-saytları isə beynəlxalq miqyasda milli musiqi mədəniyyətimiz haqqında geniş məlumat mənbəyinə çevrilmişdir. Təsəvvür edin ki, dünyanın ən müxtəlif yerlərində, ən müxtəlif millətlərdən olan insanlar bu saytlara daxil olaraq, Azərbaycanın musiqi mədəniyyətini tanımaq imkanı əldə edir, musiqimizi eşidir, mədəniyyətimizin ən parlaq simalarını görür, səs yazılarını və not ədəbiyyatını əldə edə bilir. Bu da Azərbaycan mədəniyyətinin dünyada tanıdılmasına mühüm töhfələrdir.

Təkcə virtual məkanda təqdim olunan saytların janrına, məzmununa, tərkibinə nəzər salmaq bunu sübut edir. Bu elektron resurslarda ənənəvi musiqi, bəstəkar yaradıcılığı, mədəni-mənəvi irs, ədəbiyyat, poeziya, teatr sənəti, Azərbaycanda yaşayan azsaylı xalqların musiqi folkloru əksini tapır: portallar, memorial saytlar, elektron dərslik və dərs vəsaitləri, ensiklopediyalar, lüğətlər, lektoriyalar, elektron kitabxanalar, səsyazıları, not yazıları, karaoke nəşrləri və s. Bu sırada "Üzeyir Hacıbəyli" portalını (özündə dərslik, ensiklopediya və virtual muzeyləri cəmləşdirir), "Qara Qarayev", "Tofiq Quliyev", "Əfrasiyab Bədəlbəyli", "Vaqif Mustafazadə", "Xan Şuşinski", "İlyas Əfəndiyev", "Rəsul Rza", "Şəmsi Bədəlbəyli" memorial saytlarını, "Azərbaycan bəstəkar və musiqişünasları", "Bakı Musiqi Akademiyası", "Azərbaycan teatrı" kataloq saytlarını, "Muğam ensiklopediyası", "Üzeyir ensiklopediyası", "Dədə Qorqud ensiklopediyası" saytlarını qeyd edə bilərik. "Azərbaycan bəstəkarlarının mahnıları", "Azsaylı xalqların mahnıları", "Yüz şairin yüz şeiri" karaoke topluları bir neçə dildə həm çap və həm də elektron formatda həyata keçirilib. Adıçəkilən elektron məhsulların təhsil sahəsində böyük rolu vardır. Müasir texnologiyaların təhsildə tətbiqi özlüyündə innovasiyalı bir sahə kimi diqqəti cəlb edir.

Təsadüfi deyil ki, T.Məmmədovun rəhbərliyi ilə "Musiqi dünyası" elektron nəşrlər mərkəzinin əməkdaşları tərəfindən yaradılmış saytlar bir çox mükafatlar almışdır. Bu sırada "Azerbayjan E-Kontent-2005", "İntellekt-2005", "Humay-2007" mükafatlarını, müxtəlif illərdə 10 saytın "NETTY" milli internet müsabiqəsinin mükafatına layiq görülməsini qeyd edə bilərik.

Bu il "Musiqi dünyası" jurnalının nəşrə başlamasının 20 illiyi tamam olur. Əlamətdardır ki, Tariyel müəllim öz ənənəsinə sadiq qalaraq, bu yubileyi də maraqlı bir nəşrlə qarşılamışdır. "Musiqi dünyası" jurnalı. Biblioqrafiya. 1999-2019" adlanan bu nəşrdə 20 il ərzində jurnalın bütün fəaliyyət tarixi öz əksini tapmışdır. Biblioqrafiyanın ideya müəllifi və elmi redaktoru Tariyel Məmmədov, tərtibçilər: "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" kafedrasının müəllimləri Fəxriyyə Səfərəliyeva və Lalə Hacıyevadır.

Çox səliqəli və böyük səriştə ilə tərtib olunan biblioqrafiyada "Musiqi dünyası" jurnalının fəaliyyəti hərtərəfli əks olunmuşdur.

Biblioqrafiyanın əsas bazasını təşkil edən məqalələr və nəşrlər ayrılıqda azərbaycan, rus, türk və ingilis dillərində, 2447 sayda təqdim olunmuşdur ki, bu da çox sanballı bir rəqəm göstəricisidir, həm də sadəcə rəqəm deyil, elmi fikrin əhatə dairəsi, inkişaf yolu, yaradıcılıq mənzərəsi deməkdir. Ayrıca adlar göstəricisində də biz hər nəsildən olan elm və mədəniyyət xadimlərinin adlarını görürük ki, burada Azərbaycanın, Rusiyanın, Türkiyənin, Özbəkistanın və digər ölkələrin nüfuzlu musiqişünas-alimləri ilə yanaşı, elm sahəsində ilk addımlarını atan tədqiqatçılar təmsil olunmuşdur.

Biblioqrafiyada jurnalın rubrik göstəriciləri də öz əksini tapmışdır. Jurnalın rubrikaları onun maraqlarının nə qədər çoxcəhətli olduğunu və musiqi mədəniyyətinin bütün sahələrini əhatə etdiyini göstərir: "Musiqi və cəmiyyət", "Ustadlarımızın xatirəsinə", "Üzeyirşünaslıq", "Portretlər", "Etnomusiqişünaslıq", "Musiqinin aktual problemləri", "Musiqi tarixi", "Musiqi nəzəriyyəsi", "Musiqi təhsili və maarifçiliyi", "Kulturoloji məsələlər", "Müəllif və hüquq", "Gənc tədqiqatçılar", "Bizə yazırlar", "Yeniliklərimiz", "Biblioqrafiya...Diskoqrafiya...". Bunlar hələ jurnalda öz əksini tapan rubrikaların tam siyahısı deyil. Burada həmçinin, jurnalın təsisçiləri olan Azərbaycan Bəstəkarlar İttifaqının və Bakı Musiqi Akademiyasının həyatı, keçirilən tədbirlər, konsertlər və s. məlumat öz əksini tapır.

Bütün bunlarla yanaşı, "Musiqi dünyası"nın çox təsirli bir rubrikası da vardır: "Dünyasını dəyişənlərin xatirəsinə". Zaman-zaman itirdiyimiz sənətkarların - bəstəkarların, alimlərin, ifaçıların, musiqişünasların xatirəsinin anılması, həmkarları tərəfindən son vida sözləri jurnalın səhifələrində öz əksini tapmışdır ki, gələcək nəsillərə bir örnəkdir.

Ayrıca siyahıda "Musiqi dünyası"nın internet məkanındakı fəaliyyətini əks etdirən saytların ünvanı öz əksini tapmışdır. Burada 41 adda veb-sayt göstərilir ki, bu da əhəmiyyətli rəqəmdir və bu saytlardan hər birinin arxasında böyük bir yaradıcılıq işi, mütəxəssislərin gərgin əməyi durur. Bu, həm də saytoqrafiyanı zənginləşdirən mənbələrdir.

"Musiqi dünyası" jurnalının hər çap nömrəsinə notlar, disklər əlavə olunur. Jurnalın ilk nömrəsi Azərbaycan Respublikasının himninin notları ilə açılmışdı. Həmin vaxtdan 20 il boyu jurnalın çapdan çıxan 78 nömrəsinə əlavə olunmuş materiallar notoqrafiya və diskoqrafiya sahəsini əhəmiyyətli dərəcədə genişləndirmişdir.

Maraqlıdır ki, biblioqrafiyada jurnalın çapı ilə bağlı heç bir detal kənarda qalmamış, hətta üz qabığında istifadə olunan rəssamların əl işi də qeyd olunmuşdur. Onu da deyim ki, "Musiqi dünyası"nın hər nömrəsi kitab qrafikası və dizaynının diqqətəlayiq nümunəsi olub, yüksək səviyyəli mütəxəssislər tərəfindən yaradılmışdır.

Yeri gəlmişkən, qeyd etmək istərdim ki, "Musiqi dünyası" jurnalı və elektron nəşrlər mərkəzində kiçik bir kollektiv çalışır. Ancaq yüksək ixtisaslı kompüter mütəxəssisləri, proqramçılar və veb-ustaları, eyni zamanda, bəstəkar və musiqişünas alimlər, həqiqi mənada öz işinin bilicisi olan şəxslər bu qrupda

birləşərək, səmərəli fəaliyyət göstərirlər. Redaksiyanın Azərbaycandakı muzey və arxiv fondları ilə də yaxından əməkdaşlığı burada hazırlanan çap və elektron nəşrlərində materialın həcminin daha geniş dairədə əhatə olunmasını və dərindən işlənilməsini təmin edir. Bu baxımdan, əlbəttə ki, baş redaktor Tariyel Məmmədovun çox səriştəli rəhbər kimi rolu böyükdür.

"Musiqi dünyası" jurnalının və elektron nəşrlər mərkəzinin rəhbəri kimi T.Məmmədovun fəaliyyətində sanki zamanı qabaqlamaq tendensiyası vardır. Professional musiqi sahəsində ilk dəfə kompüter texnologiyalarının tətbiqi ilə məhz "Musiqi dünyası" məşğul olmağa başlamışdır və o, həyata keçirilən layihələrlə, yaradılan veb-saytlarla, ərsəyə gətirilən elektron məhsullarla həmişə öndə olmağa çalışır və buna nail olur.

"Musiqi dünyası" T.Məmmədovun bütün elmi fikirlərini və təxəyyülünü reallaşdırdığı məkana çevrilmişdir. Bununla yanaşı, onun elmi, pedaqoji və ictimai fəaliyyətinin bəhrələrini aşıqşünaslıq sahəsini zənginləşdirən not yazılarında və sanballı tədqiqatlarında ("Koroğlu havaları", "Azərbaycan aşıqlarının ənənəvi havaları", "Azərbaycanın professional xalq musiqisi: aşıq sənəti", "Azərbaycan klassik aşıq havaları" və s.), Bakı Musiqi Akademiyasında rəhbərlik etdiyi "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" kafedrasının işində görürük. O, fəaliyyətinin bütün sahələrini bir-birilə əlaqələndirməyi və onları "Musiqi dünyası"nda qovuşdurmağı bacarır.

Mən "Musiqi dünyası" jurnalının 20 illik yubileyi münasibətilə jurnalın baş redaktoru Tariyel müəllimi, redaksiya heyətini, əməkdaşlarını, jurnalın ərsəyə gəlməsində əməyi olan hər kəsi, eləcə də bütün musiqi və elmi ictimaiyyəti təbrik edirəm, musiqi mədəniyyətimizin yüksəlişi, musiqi dünyamızın zənginləşməsi yollarında yeni nailiyyətlər arzulayıram.